**Seymur ŞEYDAYEV**
*MilliTəhlükəsizlik Nazirliyinin əməkdaşı*

## MƏNALI ÖMRÜN 75-ci BAHARI

Cəmiyyətin formalaşmasında, onun inkişafında elmi və təhsilin rolu danılmaz bir faktdır. Bu prosesin təşkili isə bilavasitə kitab və kitabxanalardan və bu müqəddəs peşə sahəsində çalışan insanların fəaliyyətindən asılıdır. Professor Abuzər Xələfov Azərbaycanda mədəniyyətimizin mühüs tərkib hissəsi olan kitabxanaçılıq təhsilinin yaradıcısıdır. O, bütün şüurlu həyatını kitabxana işinə həsr etmiş, kitabxana işinin nəzəri və təcrübi sahəsində böyük müvəffəqiyyətlər əldə etmişdir. XX əsrin 60-cı illərindən Azərbaycanda kitabxanaçılıq təhsilinin başında duran A.Xələfov bu gün də yorulmadan yaradıcılıq axtarışındadır. 60-cı illərdə keçmiş SSRİ-də o, ilk dəfə kitabxanaşünaslıq elmini tarix elmi ilə əlaqəli şəkildə tədqiq edərək tarix elmləri namizədi alimlik adını almaqla rus alimlərini heyrətə salmış və məhz ondan sonra bir çox rus alimləri öz tədqiqatlarını bu istiqamətdə qurmağa başlamışlar. A.Xələfovun 1961-ci ildə alimlik dərəcəsi alması Azərbaycan kitabxana ictimaiyyəti üçün də çox uğurlu bir addım olmuşdur. Məhz bu ildən başlayaraq respublikamızın aparıcı iri kitabxanaları, o cümlədən M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanası və başqaları elmi tədqiqat fəaliyyətinə başlamışlar. Qeyd edilməlidir ki, bu kitabxanaların hamısı öz elmi- tədqiqat işlərini professor Abuzər Xələfovun yaradıcılığı əsasında qurmuş və böyük uğurlar əldə etmişlər.

Professor A.A.Xələfov Azərbaycanda kitabxanaçılıq elmi məktəbini yaratmış və hazırda da məktəbə rəhbərlik edir. O, bu məktəbi yaratmaqla kifayətlənməmiş, respublikamızda kitabxanaçılıq təhsilinin aparıcı qüvvəsi olan böyük bir pedaqoji kollektiv yaratmışdır. A.Xələfovun rəhbərliyi ilə 18 elmlər namizədi və 1 elmlər doktoru öz elmi-tədqiqat işlərini yüksək səviyyədə müdafiə etmiş və bu gün öz doğma rəhbəri ilə yanaşı çalışırlar. Abuzər müəllimin elmi məktəbini təmsil edən görkəmli alimlər hazırda respublikamızda ali kitabxanaçılıq təhsilinin inkişafında görkəmli rolu olan insanlardır.

A.Xələfovun yüksək tələbkarlığı, mülayim xasiyyəti, cavanlara qayğısı, işgüzarlığı hamıya örnəkdir. Ona məxsus bu müsbət keyfiyyətlər respublikamızın bütün kitabxana ictimaiyyətinə məlumdur və bu xasiyyətlərinə görə Azərbaycanın 30 minlik kitabxanaçılar ordusu onu sevir və hörmət edir. Abuzər müəllimi təkcə tələbələri deyil, respublika rəhbərliyi də yüksək səviyyədə qiymətləndirirlər. Onun xidmətləri ayrı-ayrı vaxtlarda hökumət və dövlət mükafatları ilə qiymətləndirilmiş və ümummilli liderimiz Heydər Əliyev şəxsən ona Şöhrət ordeni və Əməkdar elm xadimi kimi yüksək dövlət mükafatlarını təqdim etmişdir. Ulu öndərimizin A.Xələfova verdiyi bu yüksək qiymət bütün kitabxana ictimaiyyətini çox sevindirmiş və bu əslində Azərbaycan kitabxanaşünaslığına verilən qiymət kimi qəbul edilmişdir.

Hazırda bütün kitabxana ictimaiyyəti, təhsil işçiləri və Bakı Dövlət Universitetinin çox minli kollektivi A.Xələfovun 75 illik yubileyini qeyd edir. Abuzər müəllimin yüksək elmi potensialını və peşəkarlığını nəzərə alaraq Azərbaycan Respublikası Təhsil Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi və Bakı Dövlət Universitetinin rəhbərliyi ayrı-ayrılıqda yubiley tədbirləri keçirmək üçün sərəncam imzalamış və o, müxtəlif mükafatlara təqdim edilmişdir.

Biz də bu tədbirlərə qoşularaq hörmətli Abuzər müəllimi anadan olmağının 75, elmi- pedaqoji fəaliyyətinin 50 illiyi münasibəti ilə ürəkdən təbrik edir, ona bundan sonra da səmərəli və üğürlü fəaliyyət göstərməyi arzu edirik.